525-ci qəzet 3 noyabr 2020-ci il, çərşənbə axşamı
www.525.az Facebook.com/525.az Instagram.com/525ciqezet

# Fransızsayağı demokratiya



Mahir CAVADLI

Uşaqlıqdan yaddaşımda bir ifadə ilişib qalıb: erməni budaq cümləsi! Sözün düzü bilmirəm mənfur qonşularımızda budaq cümləsi var, ya yox, yaxud varsa da necə olur bu budaq cümləsi? Onu bilirəm ki, bu ifadəni sözü baş-ayaq, anlaşıqsız deyənlərə aid edirdilər.

İndi Fransız demokratikliyi də eynən "erməni budaq cümləsi" ifadəsini xatırladır. Yəni, etdiklərin hara, demokratiya hara?...Tarixin son illər gözə çarpan məqamlarında ermənilərin təhrikinə uyaraq Türkiyəni, türk soyluları, islamı, islama sitayiş edənləri az qala əbədi düşmənə çevirmək uğrunda mübarizə Fransa dövlət siyasətinin əsas xəttinə çevrilməkdədir. Prezidentlərin biri gedir, o birisi gəlir. Yenə bu iyrənc fobiya dəyişmir ki, dəyişmir. Məncə, heç dəyişməyəcək də! Çünki fransız demokratiyasının mərkəzində özünü türkün düşməni elan etmiş ermənizm durur! Dialoqu, anlaşmanı, arxivlərin birgə işlənməsini yox, faktsız-sübutsuz dirəşməni, separatizmi, terroru əlində, ayağında, başında, dişində ideoloji mübarizə metodları seçmiş bu ermənizm bu Avropa respublikasının demokratiyasına elə parçimlənib ki, onu oradan çıxarmaq üçün güc strukturlarının da gücü çatmır. Elə bir rəzil ölkə misal gətirmək mümkün deyil ki, Ermənistan qədər çirkabda batan dövləti, erməni kimi özü-özünü rəzil etmiş bir milləti müdafiə etmək üçün milli mənafeyinə bu qədər zərbə vurmuş olsun, digər millətlərin nümayəndələrinin, hətta fransız vətəndaşlarının hüquqlarına bunca xələl gətirməyə cürət etsin. Elə bir qondarma demokratiya yoxdur ki və təsəvvür etmək mümkün deyil ki, qondarma soyqırımı rədd edən vətəndaşına qarşı insan hüququnun ən sərt şəkildə pozulduğu maddələr ölkə qanunlarında təsbit olunsun!

Bəlkə də, Fransada şəhərlər Afrikadakından gözəl, ən əsası qadınları daha cazibədar, restoranlar, saraylar daha dəbdəbəli, yaşayış səviyyəsi daha yüksəkdir. Belə də olmalıdır. Çünki II Cahan savaşında ən qısa müddətdə təslim olan bu ölkədə dünyanın bəlasına çevrilə biləcək faşizmə qarşı əməlli-başlı müqavimət də göstərilməyib, qapıları düşmən üzünə taybatay açılıb. Ciddi dağıntılar olmayıb, heç arzulamırıq da! Ancaq sonradan faşizm üzərində qələbənin sevinc və qalib payını digər dövlətlərlə tən bölüşüb Fransa, hələ layiq olmadığından bir az da artıq mənimsəyib. İndi özünü hegemon dövlət sayır.

Zaman dəyişib, ey arxadan zərbə vurmağa adət etmişlərin arkadaşları! "Dünyada tək bir ölkə olsaydı, sənayesi almanlardan, ordusu türklərdən, ......si fransızlardan ibarət olardı" Avropa misalında nöqtələri özünüz tapıb əvəzləyin, həm də "ordusu türklərdən" ifadəsini unutmayın. Aralıq dənizində sizə aid olmayana burnunuzu soxmayın, Qarabağda ədalətsiz niyyətlərinizi həyata keçirməyə cəhd etməyin, dünyanı rahat buraxın. Ədaləti öz qanlı cinayətlər dolu keçmişinizdə, Əlcəzair kimi koloniyalarda axtarın, səbəbkarı və qızışdırıcısı olduğunuz, milyonlarla insanın məhvinə, şikəstliyinə gətirib çıxaran 100 illik müharibələrinizdə arayın! Bütün Avropanı zəbt edərək Rusiyaya soxulan burnunuzun ovulmasını yəqin ki, bağışlaya bilmirsiniz. Azərbaycanın yaxın qonşusu, strateji tərəfdarı Rusiya hər dəfə dostumuz, qardaşımız Türkiyə ilə hər hansı anlaşmaya imza atanda, müştərək işlər üçün qollarını çırmayanda qıcıqlanırsınız, bəhanələr axtarırsınız, dəridən-qabıqdan çıxırsınız. Əsl ağalarınızın təhriki ilə müsəlman liderlərini təhrik edirsiniz. Düşünün, Makron kimi birisinin məğrurluq, kişilik rəmzi olan bir millətin - çeçen xalqının lideri haqqında danışmağa ümumən haqqı çatmır. O, bu cürəti haralardan, kimlərdən alır, görəsən? Dağlar oğlunun cavabını bir daha fikir süzgəcinizdən keçirin, mətləbini, məramını anlasanız, min şükür!

Dünyanın harasındasa nə üzlə demokratiya axtarırsınız, axı?!... Ölkənizdə Qarabağda qaynar döyüşlərdən epizodlar çəkib yayımlanan məşhur telekanalın aparıcısı təhdid olunur, həqiqəti əks etdirən süjet efirdən çıxarılır. Jurnalistə qarşı erməni hücumu başlayr. Təkcə ona görə ki, jurnalist həyatını təhlükəyə atdığı döyüşdə qalib tərəf Azərbaycandır. Rabitə və texnologiyanın bu qədər inkişaf etdiyi bir dövrdə söz, fikir daşıyıcısı olan bir peşə sahibinə qarşı bu təhdidlərin kim tərəfindən olunduğunu, kimlərin terrora çağırış etdiyini tapıb üzə çıxarmaq, baş verənlərə daha çox milli, dini mənsubiyyət prizmasından yanaşmanı kənara qoyub beynəlxalq hüququn tələbləri çərçivəsində cəzalandırmaq çətin deyil. Siz özünüz istəmirsiniz və söz, vicdan azadlığından dəm vurursunuz. Peşəsini ləyaqətlə yerinə yetirən cəsur xanımın söz azadlığını demirəm, azad və sərbəst yaşamaq haqqını kim təmin etməlidir?!

Erməni dığaları Fransadan gələn ianələrlə silah alıb torpağıma hücum edəndə kənardan durub iti üstümüzə qısqırdan kimi "vurun" deyirdiniz, indi hansı üzlə bizə "durun" deyirsiniz?... Ermənistan-Azərbaycan münaqişəsinin həlli prosesində Minsk qrupunun həmsədri kimi on illiklərdir ki, məsələnin həlli ipini əlinizdə saxlayırdınız. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuz torpaqlarımızı erməni işğalından azad edəndə isə ilk ədalətsiz etiraz səsini qaldıran ölkə məhz Fransa Respublikası oldu. Bəs bu illərdə harada idiniz, niyə ədaləti bərpa etmirdiniz, imza atdığınız bəyanatların dünya birliyi tərəfindən həyata keçirilməsinə cəhd göstərmədiniz? Çünki imzanızı baş aldatmaq, erməninin yalançı, saxta tarixini yeni daha bir "şərəfli" səhifə ilə "zənginləşdirmək" istəyirdiniz. Azərbaycan ordusu arzunuzu ürəyinizdə qoyanda iç üzünüzü bir daha açdınız. Baş tutmayacaq, bizim torpaqlarda niyyətləriniz puç olacaq. Götürün öz bədxahlarınızı, çəkin qanadınızın altına!

Bizə ümid bəsləməyin, sizlərdən fərqli olaraq, dünya siyasi arenasına öz məntiqi, ağıl və dərrakəsi, uzaqgörənliyi, intellekti... ilə nüfuz edən Azərbaycan Respublikasının prezidenti İlham Əliyev çıxış və müsahibələrində dediyi sözün yiyəsi və ağasıdır! Sizin tərəfini tutduğunuz adı baş, başı boş nazir, çörəyini yeyib yiyəsinə diş qıcaran ermənilər kimi hərdəmxəyal, yalançı və saxta deyilik biz. Prezidentimiz dediyi haqq sözüdür, dedisə edəcəyik! PUAlarımızın adını da yaddan çıxarmayın!

Məhz sizin demokratik Avropa ölkənizin yaraşıqlı şəhərlərinin küçələrində xuliqan qruplar əllərinə Ermənistanın və heç bir dövlət tərəfindən tanınmayan qondarma bir qurumun saxta bayrağını yellədərək türk və islam mənşəli insanlara hücum edirlər, fiziki təzyiq göstərirlər. Budurmu sizin Avropa dəyərləriniz? Budurmu sizin insanlıq keyfiyyətləriniz? Budurmu sizin yüksək həyat səviyyəniz? Və yaxud bu dəyərlərə sadiq bir ölkəni inkişaf etmişmi sanmaq olar?

Tələsməyin, həlaki iyrənc niyyətlərində dəyənək olan bu mənfur gədə-güdə yığnağı bir gün o dəyənəyi sizin öz başınıza endirəcək. Mən buna əminəm. Yazığım gəlir bu ölkədə yaşayan qeyri-erməni millətlərə, yazığım gəlir bu siyasətə dəstək olan antiislam ruhlu insanlara. İslamin ulu və ali dəyərinə sadiq olanları Avropanın əli ilə islam əleyhinə yönəli qüvvələr tərəfindən idarə olunanlarla səhv salırsınız. Bu saxta, qondarma qüvvələr hakimiyyətin problemli dönəmlərində üzə çıxırlar, alət kimi istifadə olunurlar və zibil yeşiyinə atılırlar. Sonra yenidən və yenidən... Beləcə tarix təkrar olunur, ailəsini idarə etməyə qadir olmayanlar isə bu iğtişaşlar fonunda öz hakimiyyətlərində, öz ampulalarında qalırlar.

Terror, kim tərəfindən törədilməsindən asılı olmayaraq, lənətlənməlidir. Terroru doğuran səbəblər də, cinayətlərə yol açan vəziyyətlər də təhlil olunmalıdır, nəticə çıxarılmalıdır. Bu gün Türkiyə kimi qüdrətli bir dövlətin başçısı Rəcəb Təyyub Ərdoğanın sözünü özünə həqarət sayan Makron bütün islam dünyasının Peyğəmbərinin karikaturasının çəkilməsini söz, vicdan azadlığı kimi qələmə verir. Mümkün deyil ki, əsl islami dəyərlərə malik (xarici xüsusi xidmət orqanlarının yaratdıqları və istifadə etdikləri qruplardan söhbət getmir) müsəlman digər bir dinə qarşı hörmətsizlik göstərsin. Bunu azacıq ağlı və məntiqi olan hər bir kəs təsdiqləyə bilər. Yalnız Allahı inkar edənlər Allahın bəndələrini günahsızcasına aşağılaya, təhqir edə, ona qarşı mənəvi və fiziki işgəncələrə əl ata bilər, o ki, qala Allahın Peyğəmbərinə! Peyğəmbərimizə yönəli hər bir pis niyyət, iyrənc ifadə ən azı dünyanın islam dininə sitayiş edən insanlarına, bu adı daşıyan milyonlara təhqirdir. Buna yol vermək olmaz. İçinizdə olan niftəri bu cür çirkin əməlləri qızışdırmağa xərcləməyin. Bəlkə də sizə belə sərf edir, bizə isə lazım deyil, əslən!

Kifayət deyilmi, ay avropalı "obrazovannılar"? Qəlbinizi, ruhunuzu islamafobiya ilə yükləməyin, özünüzü nahaqdan təşvişə salmayın, birgə yaşayış haqqında beynəlxalq dəyərlərə, yazılmış və yazılmamış bəşəri keyfiyyətlərə, humanist prinsiplərə hörmətlə yanaşın. Başa düşün ki, islam sülh və barışıq dinidir. Bunu anlasanız, yaşamaq da asan olar!